***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan fevralın 9-da Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib və Azərbaycanda keçirilən parlament seçkilərində Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının qələbə qazanması münasibətilə dövlət başçısını təbrik edib, yeni parlamentə fəaliyyətində uğurlar arzulayıb.***

***Prezident İlham Əliyev, öz növbəsində, göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.***

***Dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə edib və yaxın zamanlarda yeni təmasların davam etdirilməsi haqqında qərara gəliblər.***

# Azərbaycan demokratik, azad və ədalətli seçki keçirməyə qadir olduğunu bir daha təsdiqlədi









Bu məlumatı diqqətə çatdırmaqda məqsəd ölkəmizdə keçirilmiş parlament seçkilərinin beynəlxalq aləmin diqqət mərkəzində olduğunu təsdiqləməkdir. Fakt təkcə bununla bitmir. Fevralın 9-da – seçki başa çatdıqdan sonra "Hilton" otelində Amerika Birləşmiş Ştatları, ABŞ və Kanada üzrə Buxara Yəhudi Konqresi, Fransa Senatı, Almaniya, İsrail, Vyetnam, Braziliya, İspaniya, Pakistan, Macarıstan, Belarus və digər ölkələrin, həmçinin MDB Parlament Assambleyası, QİƏT, GUAM kimi nüfuzlu qurumlardan gəlmiş beynəlxalq müşahidəçilərin nümayəndələri keçirdikləri mətbuat konfransında ölkəmizdə keçirilən parlament seçkilərinin beynəlxalq standartlara uyğun olduğunu bildirdilər.

Ümumiyyətlə, son iki gündə 50-dək beynəlxalq müşahidəçinin açıqlaması seçki prosesinin azad, demokratik, şəffaf şəraitdə ölkənin qanunvericiliyinə tam uyğun olaraq keçirildiyini sübuta yetirir. Qeyd edildiyi kimi, seçkilərdə 1314 namizədin iştirak etməsi deputat mandatı uğrunda mübarizənin yüksək rəqabət şəraitində aparılmasından xəbər verir.

Prezident İlham Əliyevin xalq arasında yüksək şəxsi nüfuzu, həyata keçirdiyi siyasətin möhtəşəm nəticələri parlament seçkilərində də özünü büruzə verdi. Hər dəfə respublikamızda azad və ədalətli, şəffaf, beynəlxalq standartlara uyğun seçkilər keçiriləndə Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi daha da möhkəmlənir, əlaqələri genişlənir, reytinqi yüksəlir.

Son illər ölkəmizdə uğurla davam edən genişmiqyaslı islahatlar Milli Məclisin yeni tərkibdə formalaşmasına rəvac verdi. Bu da ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasına, qanunverici hakimiyyətin daha çevik fəaliyyətinə öz dəyərli töhfəsini verəcək.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov növbəti mətbuat konfransında bir daha qeyd etdi ki, seçkilər qanunvericiliyin tələblərinə uyğun keçirilib. 5 min 573 məntəqənin hamısında səsvermənin vaxtında – səhər saat 8-də başlayıb axşam saat 19-da insidentsiz başa çatması da bunu təsdiqləyir. Həmin gün hava şəraitinin pis olmasına baxmayaraq, ölkə üzrə ümumi seçici fəallığı 47,81 faiz olub. Bu, o deməkdir ki, 5 milyon 329 min 460 seçicidən 2 milyon 547 min 982-si səsvermədə iştirak edib. Bu faktı İslamabad Qlobal və Strateji Araşdırma Mərkəzinin icraçı direktoru Xalid Teymur Əkrəm Bakıda keçirdiyi mətbuat konfransında da diqqətə çatdırdı. Dedi ki, həmin gün havanın əlverişsiz olmasına baxmayaraq, seçici fəallığı diqqəti cəlb edirdi. Bu da, ilk növbədə, parlament seçkilərinə hazırlıq işlərinin yüksək səviyyədə təşkil olunmasının nəticəsi idi.

Mərkəzi Asiya və Azərbaycan üzrə ekspert Mahmud Əsilxanın da fikirləri maraq doğurur. O da həmin gün havanın sərt keçdiyindən söhbət açır, ancaq yaşlı adamların səsverməyə gəlməsinin şahidi olduğunu bildirir. Bunu ölkədə seçki sisteminə olan maraqla əlaqələndirir. Bildirir ki, müşahidə apardığı zaman hər hansı qanun pozuntusuna rast gəlmədi. Yeni formalaşacaq parlamentin Azərbaycanda siyasi sistemin müasirləşməsində və demokratikləşməsində vacib rol oynayacağına əminliyini bildirən beynəlxalq ekspert bu seçkilərin inkişaf etmiş ölkələr üçün örnək olacağını vurğuladı.

"Sevindirici haldır ki, soyuq hava şəraitinə baxmayaraq, seçicilər məntəqələrə gəlib səs verirlər. Mən yaşlı bir seçicidən belə soyuq havada səsverməyə gəlməsinin səbəbini soruşduqda dedi ki, seçkidə iştirak etməyimdən qürur duyuram. Doğrusu, bu cavabdan çox xoşhal oldum. İnsanlarında seçkiyə yüksək maraq göstərməsinin səbəbi ölkədə demokratiyanın, insan hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiə olunmasının təzahürü kimi qiymətləndirilməlidir". Bu fikirləri isə ABŞ və Kanada üzrə Buxara Yəhudiləri Konqresinin koordinatoru Rafael Nektal bildirdi. Dedi ki, ilk dəfədir ki, Azərbaycanda beynəlxalq müşahidəçi kimi seçkiləri izləyir. O, həmkarı ilə birlikdə Bakıdakı seçki məntəqələri ilə yanaşı, regionlardakı seçkiləri də izlədiyini dedi: "Əvvəlcə seçki məntəqələrində hazırlıq işləri ilə tanış olmuşuq. Fevralın 9-da isə seçkinin gedişini izlədik. Müşahidə apardığımız seçki məntəqələrində qanunvericiliyin tələblərinə ciddi riayət olunurdu. Hiss olunurdu ki, seçki məntəqələri buna tam hazırdır. Quba rayonuna səfərimiz daha maraqlı oldu. Çünki bu rayonda qar yağmışdı və hava çox soyuq idi. Buna baxmayaraq, yaşlı insanlar seçki məntəqələrinə gəlib istədiyi namizədə səs verirdi".

R. Nektal Azərbaycanda güclü vətəndaş cəmiyyətinin formalaşdığının şahidi olduğunu bildirdi. Seçkiyə gələn sadə vətəndaşlarla söhbət etdiyini bildirən beynəlxalq müşahidəçi insanların öz vətəndaşlıq məsuliyyətini anlamalarından məmnun qaldığını bildirdi: "Onlar yaxşı bilirlər ki, ölkənin gələcəyi səsvermədə fəal iştirakdan asılıdır. Söhbət etdiyim vətəndaşlar Prezident İlham Əliyevə və onun yürütdüyü siyasətə çox inamla yanaşırlar. Azərbaycanda güclü vətəndaş cəmiyyəti formalaşıb".

Amerikanın San-Dieqo Ştat Universitetinin professoru Martin Kruminq seçki prosesində şəffaflığın təmin olunmasını yüksək qiymətləndirsə də, onun üçün ən çox yaddaqalan, özünün dediyi kimi, azərbaycanlıların qonaqpərvərliyi, səmimiliyi olub: "Biz orta ümumtəhsil məktəblərinin birində yerləşən seçki məntəqəsində müşahidə aparıb, çıxmaq istəyəndə komissiyanın sədri bizi çay və kofe içməyə dəvət etdi. Biz bundan çox məmnun olduq. Açığını deyim ki, Amerikada belə şey yoxdur. Diqqətimizi çəkən bir məqam da səsvermədən sonra seçicilərin komissiya üzvləri ilə səmimi söhbətləri oldu".

Beynəlxalq müşahidəçilərin diqqətini cəlb edən digər bir məqam isə builki seçkilərdə gənclərin, xüsusilə də qadınların çoxluğu və fəallığı olub. Qeyd edildi ki, Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk müsəlman ölkəsidir. İlk dəfə olaraq, kişilərlə bərabər, qadınlara seçkilərdə iştirak etmək – seçmək və seçilmək hüququ verilib. Hazırda qadınlarımızın müstəqil Azərbaycan dövlətinin ictimai-siyasi həyatında getdikcə artan rolu və mövqeyi milli dövlətçilik tariximizin ən böyük uğurlarındandır. Bu uğurlar bir tərəfdən, Azərbaycanda qadın fəallığı sayəsində çoxəsrlik tarixə söykənən zəngin ənənələr, digər tərəfdən ölkə rəhbərinin həyata keçirdiyi strateji inkişaf xəttində qadın siyasəti ilə bağlı seçilmiş prioritetlər üzərində qərar tutur. Builki parlament seçkilərində də bunun şahidi olduq. 276 qadın namizədin seçkilərə qatılması seçkiyə olan yüksək marağın göstəricisidir. Onların hamısı cəmiyyətdə sayılıb-seçilən qadınlar olub. Əsas göstəricilərdən biri də namizədlərin yaş həddi ilə bağlıdır. Namizədlər arasında gənclərin mütləq əksəriyyəti xarici ölkələrdə təhsil alanlardır.

Ölkəmizdə yaşayan bütün vətəndaşların seçki hüququnun təmin edilməsi qarşıya qoyulan prioritet vəzifələrdəndir. Xüsusilə, Ermənistanın işğalçı siyasəti nəticəsində doğma ata-baba yurdlarından didərgin salınmış soydaşlarımızın seçmək və seçilmək hüququ daim dövlətimizin diqqət mərkəzində saxladığı məsələlərdən olub.

Parlament seçkilərinə olan maraq siyasi partiyaların və onların təmsilçilərinin sayının çoxluğunda da özünü göstərdi. 1314 namizəddən 246 nəfəri partiyaların siyahıları ilə irəli sürülüb. Təbliğat-təşviqat kampaniyası zamanı siyasi əqidəsindən və mövqeyindən asılı olmayaraq, bütün namizədlərə bərabər səviyyədə şərait yaradılıb.

Heç bir ölkədə ideal seçki sistemi yoxdur. Hətta inkişaf etmiş ölkələrdə də keçirilən seçkilərdə də müəyyən nöqsanlar olur. Ola bilsin ki, bu seçkilərdə də seçkinin ümumi nəticəsinə təsir göstərməyən nöqsanlar baş verib. MSK sədri Məzahir Pənahov bu məsələyə münasibət bildirərkən dedi ki, pozuntulara yol verən bütün aşağı seçki komissiyaları ciddi surətdə cəzalandırılacaq. MSK sədrinin sözlərinə görə, belə pozuntulara yol verən seçki komissiyaları buraxılacaq: "Biz bununla bağlı qəti addımlar atacağıq. Seçki komissiyalarının səhv, xüsusən, bilərəkdən səhv etməyə haqqı yoxdur. Hətta lazım gəlsə, hüquq-mühafizə orqanlarına müraciət edəcəyik. Biz seçki ilə bağlı müraciətləri KİV-in, ictimaiyyətin iştirakı ilə araşdıracağıq. Hər kəs imkanları daxilində proseslərə yardımçı olmalıdır".

Seçkini müşahidə edən həm yerli, həm də beynəlxalq müşahidəçilərin, o cümlədən aparıcı kütləvi informasiya vasitələrinin sayı da təsdiqləyir ki, parlament seçkilərinə maraq böyük idi. Seçkinin gedişini 47 ölkəni təmsil edən 132 beynəlxalq kütləvi informasiya vasitələrinin 199 təmsilçisinin işıqlandırması da bundan xəbər verir. Elə müşahidəçilərin sayı da rekord həddə idi: 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edən 883 beynəlxalq və 77 min 790 yerli müşahidəçi. Onlardan 35 min 152-si siyasi partiyaların, 2 min 737-si isə QHT-lərin təmsilçiləri idi.

Seçkilərin gedişini izləmiş həm yerli, həm də beynəlxalq müşahidəçilərin rəyləri, eləcə də aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrinin fikirləri bir daha təsdiqləyir ki, Azərbaycan dünya ictimaiyyətinə daha bir demokratik, şəffaf, azad və ədalətli seçki nümunəsi təqdim etdi.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***